Azad Azərbaycan

9 fevral / 2021



# Ölməzliyə qovuşan vətən sevdalısı: Əliqismət Yaqublu



**Əliqismət Mükafat oğlu Yaqublu 44 gün davam edən, şanlı Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsində döyüş meydanında misilsiz qəhrəmanlıq göstərməklə şəhidlik zirvəsinə ucaldı. Dağlar diyarının igid oğlu 28 yaşında ilahi məhəbbətlə bağlandığı, bütün sevgisini ona verdiyi vətən qarşısında son borcunu layiqli bir övlad kimi şərəflə yerinə yetirdi. Məhz buna görə də qərinələr keçəcək hər gələn nəsil Əliqismətin yadigar qoyduğu vətən sevgisindən nümunə götürməklə, onu öz qəlbində yaşadacaq.**

Əliqismətin millət, yurd sevgisi məktəb illərindən bilinir. İstedadı, vətənpərvərliyi, yüksək əxlaqi keyfiyyətləri, nəcib həyat amalı onu yaşıdlardan çox uca göstərir. Qəlbi gözəl dünya naminə qurub yaratmaq həvəsli olsa da, erməni dığaların müqəddəs Azərbaycan torpaqlarına təcavüzü ona rahatlıq vermir. Və özlüyündə düşmənin zəbt etdiyi hər qarış torpağın, öldürülən hər bir vətən övladının qisasını almaq yolunu hərbçi olmaqda görür. Ürəyinin istəyini əsas götürərək 2007-ci ildə Lerik şəhər şəhid M.Bağışov adına 3 saylı orta məktəbin 9-cu sinfi bitirib Cəmşid Naxçıvanski adına Bakı Hərbi Kollecinə daxil olur. Burada bütün oxumağı, fəaliyyəti Vətənin taleyini yönəlməklə saf və təmiz düşüncələrdən rişələnir. Və beləcə əzəmətə, əqidə və əmələ, sədaqətə, etibara tapınmaqla vətəndaşı olduğu Azərbaycanın şərəfini qorumağa, üstündə gəzdiyi torpağın qürurunu uca saxlamağa bir igid yetişir.

Əliqismət getdiyi yolu daha da mükəmməl etmək üçün Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbinə üz tutur. O, burada mükəmməl təhsil almaqla hərbin sirlərinə dərindən yiyələnir. Bir il də Təlim Tədris Mərkəzində oxuyur. Daxildən gələn sevgi, məhəbbət, mərdlik, qeyrət hissi onu sıx şəkildə hərbiyə bağlayır. 2015-ci ildə Qobustandakı hərbi hissəyə Silahlı Qüvvələrin leytenantı rütbəsində təyinat alır. Xidmətə başladığı gündən xarakterində yaşatdığı insanlığın zinəti sayılan saf və munis dəyərləri əsgərlər, zabitlər arasında ona hörmət gətirir.

**Vətənini canından artıq sevən, onun uğrunda hər an qurban getməyə hazır olan Ə.Yaqublunun qəlbində illərlə Qarabağ torpaqlarında meydan açan azğın erməni dığalarına qarşı mübarizə aparmaq istəyi günbəgün alovlanır. Odur ki, qaynar bölgələrdə olub ermənilərə matəm libası geyindirməyi özünə borc bilir. Ərizə verib könüllü cəbhə xəttində - Beyləqan rayonunun Milabaddakı hərbi korpusunda xidmətini davam edir. Adəti üzrə burada da cəsur, igid komandir, qəlbi sevdalı insan, vətənpərvər bir şəxs kimi nüfuzu, etibarı günügündən artır. Vacib məqamlarda qaynar nöqtələrə getməyi öz boynuna götürür.**

Cəsur zabit 2016-cı ildə Aprel döyüşlərinə gedəndə məkrli düşmənlə sona qədər döyüşərək qisasına alacağına and içir. Belə də olur. Lələtəpə uğrunda qanlı döyüşlərdə yağıya qan uddurur, onların bütün iyrənc arzularını ürəyində qoyur. Bundan sonra Ağcabədi rayonuna gedir. Ən əsası igidliyini, mərdliyini, yoldaşa sədaqətini, vətənə, doğma torpağa halal sevgisini görənlər onu özlərinə iftixar mənbəyi sayırlar. Cəlilabaddakı Xüsusi Təyinatlı Qüvvələrin baş leytenantı kimi də layiqli, nümunəvi xidməti hamını razı salır. Ehtiram göstərib onu xidmət rəisi vəzifəsinə seçirlər...

Qarabağ uğrunda Vətən müharibəsində qazanılan şanlı zəfərimizin əsl qəhrəmanlardan biri də Əliqismət oldu. Ürəkdən bağlandığı Vətəni yaşatmaq üçün odun-alovun içinə atılan igid zabit döyüş zamanı yüksək rəşadət, şücaət nümayiş edərək, dığalara qorxaq, mənfur kimliyini göstərə bilir. Murovdağ, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, eləcə də Laçının bir neçə kəndinin alınmasında tarix yazır. Bacarıqlı, səriştəli bir hərbçi olaraq dığalara endirdiyi zərbələr daha kəsərli alınır. Qarış-qarış torpaqlar azad olunca Vətən eşqi bir daha Əliqismətə şirinləşir. Qələbəyə doğru döyüşdən-döyüşə qırdığı dığaların sayı bilinmir. Həm də gərgin, ağır müharibə getdiyi zaman ölümün gözünə dik baxıb odun-alovun içindən neçə-neçə yaralını çıxarır.

Əliqismət Şuşa şəhərinin erməni əsarətindən azad etməsinə böyük inamla girişir. Dığaları qırdıqca qollarına yeni güc gəlir. Aldığı qisasla vətən eşqli ürəyi dağa dönür. Təəssüf ki, qələbənin bir addımlığında Daşaltıda şəhid olur. Qələbəyə inamı isə Milli Ordumuzun şərəfli zəfəri ilə nəticələnir...

Şəhid zabitin halal ocağında Əliəsgər və Məhəmməd adında iki igid böyüyür. "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda" medalı isə dövlət tərəfindən Əliqismətin göstərdiyi qəhrəmanlığına verilən dəyərli qiymətdir.

**Bəli, Əliqismətin ömrü Vətənlə bağlı oldu. Cismən həyatdan getsə də, heç vaxt adı dillərdən getməz. Günəş müqəddəsliyinə dönüb bizlərə daim Vətəni, xalqı sevməyə ürək dolu məhəbbət paylayacaq...**

**Zəfər ORUCOĞLU**